# QARABAĞ UNİVERSİTETİ BİZİM APARICI ALİ MƏKTƏBLƏRDƏN BİRİNƏ ÇEVRİLƏCƏKDİR




Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir və keçən ilin noyabrında müvafiq Sərəncam imzalandı. Sonra mən buraya baş çəkdim. Artıq mənim buraya üçüncü gəlişimdir və bütün göstərişlər verildi, Elm və Təhsil Nazirliyi tezliklə bütün lazımi tədbirləri gördü. Deməli olar ki, bina yenidən quruldu. Bu bina sovet dövründə Azərbaycan memarları, inşaatçıları tərəfindən inşa edilmişdi. İşğal dövründə bunu erməniləşdirmək üçün müəyyən işlər görülmüşdü. O əlamətlər də tamamilə silindi. Binanın önü açıldı, gözəl bir park yaradıldı. Master-plan hazırlandı, yəni gələcək illərdə, yaqin ki, növbəti üç ildə yeni tədris korpusları inşa ediləcək. Gözəl yataqxana yaradıldı, bu gün tanış olmuşam. Ən önəmlisi gənclər, yəni tələbələr buraya böyük həvəslə gəlməyə başladılar. İndi mənə məlumat verildi ki, 1200 tələbə var. Ölkəmizin hər bir bölgəsindən tələbə var. Yüksək bal toplayan, o cümlədən 600-dən çox bal toplayan tələbələr bizimlə görüşdə iştirak edirlər və buraya böyük həvəslə gəlmişlər. Müəllim heyəti də formalaşdı. Bilirəm ki, müəllimlər də böyük həvəslə bu işə başlayırlar və ümid edirəm ki, Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir. Bunu etmək üçün bütün imkanlar var. İndi verilən məlumata görə, artıq altı fakültə yaradılıb. Növbəti illərdə Tibb fakültəsi də yaradılacaq. Xocalıda Aqrar elmlər fakültəsi, Şuşada Turizm fakültəsi fəaliyyət göstərəcək. Yəni, bu, bir neçə şəhəri birləşdirən universitet olacaq. Əlbəttə ki, Qarabağa qayıdacaq keçmiş köçkünlər, onların uşaqları burada oxuyacaq və ölkəmizin hər bir yerindən gənclər buraya gələcəklər.

**Prezident İlham Əliyevin Qarabağ Universitetinin təmirdən sonra açılışındakı çıxışından (20 sentyabr 2024-cü il)**

# İLK tələbələrin imtahan həyəcanı və sevinci

## Qarabağ Universiteti tələbələrinin təəssüratları

Qarabağ Universitetində payız semestrinin ilk imtahan sessiyası uğurla yekunlaşıb. "Azərbaycan müəllimi" universitetin İctimaiyyətlə əlaqələr sektoruna istinadən tələbələrin imtahan prosesi ilə bağlı fikirlərini təqdim edir.

### "İmtahan prosesi şəffaf və ədalətli keçdi"



*Nərmin Məhərrəmzadə, Pedaqoji fakültənin tələbəsi:*

"Qarabağ Universitetində keçirilən ilk semestr imtahanlarının təşkilində müasir qiymətləndirmə metodlarından istifadə olunması diqqətçəkən məqamlardandır. Yazılı, test, şifahi və praktik imtahanlarla bilik və bacarıqlarımız müxtəlif aspektlərdən yoxlanıldı.

Bəzi fənlər üzrə təqdimat və layihə şəklində keçirilən imtahanlar yaradıcılığımızı və tənqidi düşünmə bacarıqlarımızı nümayiş etdirməyimizə şərait yaratdı. Zənnimcə, imtahan prosesi şəffaf və ədalətli keçdi. Müəllimlər hər imtahan öncəsi stresdən çıxmağımız üçün məsləhətlər verirdilər. Düşünürəm ki, növbəti semestrlərdə də uğurlarımızı davam etdirəcəyik".

### "Sualların aydın və məntiqli olmasından razı qaldım"



*İlknur Qasımov, Humanitar və sosial elmlər fakültəsinin tələbəsi:*

"İlk imtahan sessiyası olduqca maraqlı keçdi. İmtahan suallarında müəyyən çətinliklər var idi, lakin yaxşı hazırlaşdıqda suallara cavab vermək olurdu. Bundan əlavə, fənlər üzrə sualların aydın və məntiqli olmasından razı qaldım. Bəzi fənlər üzrə test üsulundan istifadə edilir, bəzilərində isə açıq tipli suallar var idi.

İmtahanlarda həyəcanlı idim, xüsusilə də ilk imtahanlarda bu, daha çox hiss edilirdi. Amma imtahana yaxşı hazırlaşaraq dərs materiallarını vaxtında oxuyanda bu həyəcan azalmağa başlayır. Çətin suallara rast gəldikdə belə təmkinli olmaq və məntiqli düşünmək situasiyadan çıxmağa kömək edirdi. Müəllimlərimiz də öz növbəsində əlavə izah saatları təşkil edərək bizi imtahana hazırlayırdılar. Onların mənəvi dəstəyi imtahana hazırlıq prosesini xeyli asanlaşdırdı. Bunun üçün bütün müəllimlərimizə təşəkkür edirik".

### "Müəllimlərimiz bizə çox dəstək oldular"



*Murad Zərbəliyev, Turizm fakültəsinin tələbəsi:*

"İmtahanlar həm maraqlı, həm də həyəcanlı keçdi. Ən çox tərəddüd içərisində olduğum tarix fənnindən də yüksək nəticə əldə etdim. Müəllimlərimiz proses müddətində bizə çox dəstək oldular və əlavə təkrar dərslər keçdilər. Təkrar dərslər stresimizin azalmasına, motivasiyamızın daha da artmasına şərait yaratdı.

Bundan əlavə, praktik ingilis dilində həm şifahi, həm də yazılı imtahanlar keçirildi. Digər fənlərdə açıq və qapalı suallar yer alırdı. Qeyd edim ki, imtahanlardan əvvəl tələbələrin motivasiyasının artırılması məqsədilə rektorumuz Şahin Bayramovla görüş oldu. Bu görüşdə Şahin müəllim bizi imtahan prosesi barədə məlumatlandırdı, suallarımızı şəxsən özü cavablandırdı, təkliflərimizi dinlədi və imtahanla bağlı tövsiyələr verdi".

### "İlk imtahan sessiyasını uğurla yekunlaşdırdım"



*Lalə Məmmədova, Humanitar və sosial elmlər fakültəsinin tələbəsi:*

"Sessiya müddətində ən xoşuma gələn məqamlardan biri sualların müxtəlif formatda tərtib olunması idi. Belə ki, bəzi fənlər üzrə daha çox qapalı tipli suallar yer alırdı, digərlərində isə açıq tipli cavab tələb edən tapşırıqlar üstünlük təşkil edirdi. Şəxsən mən açıq tipli suallara daha çox üstünlük verirəm, çünki bu cür suallar təkcə yaddaşı yox, həm də analitik düşüncəni ortaya çıxarır və mövzuya yaradıcı yanaşma tələb edir.

Bu çətin, lakin öyrədici prosesdə müəllimlərimizin rolu danılmaz idi. Onlar bizə yalnız dərs saatlarında deyil, əlavə vaxt ayıraraq da dəstək olurdular. İmtahanlarla bağlı suallarımızı cavablandırmaq üçün müzakirə saatları təşkil edir, biliklərimizi möhkəmləndirmək üçün əlavə mənbələr təqdim edirdilər. Bu mənada həm müəllimlərimin dəstəyi, həm də öz səylərim sayəsində ilk imtahan sessiyasını uğurla yekunlaşdırdığımı düşünürəm".

# "Qarabağ Universitetinin Klinikası" azad edilmiş torpaqlarda yüksək keyfiyyətli tibbi xidmətlərin göstərilməsində mühüm rol oynayacaq




İlk növbədə, "Qarabağ Universitetinin Klinikası" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında Fərmana görə kollektivimiz adından Prezidentimizə sonsuz təşəkkürümüzü bildiririk. Bu Fərman dövlət başçımız tərəfindən 2023-cü ilin noyabrında yaradılan və 2024-cü ilin sentyabrında fəaliyyətə başlayan Qarabağ Universitetinin inkişafına göstərilən yüksək diqqət və qayğının növbəti nümunəsidir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Qarabağ Universitetinin rektoru Şahin Bayramov söyləyib.

O bildirib ki, klinika Qarabağ Universitetində tibb ixtisasları üzrə təhsil alan tələbələrin peşəkar kadr kimi hazırlanmasını təmin edəcək, tibb sahəsində elmi-tədqiqatlar aparacaq, regionda əhalinin sağlamlığının qorunmasında iştirak edəcək. Yəni klinikada, eyni zamanda tədris, tədqiqat və tibbi xidmət fəaliyyəti həyata keçiriləcək.

Qarabağ Universitetində ali tibb təhsili sahəsində tətbiq olunacaq yeni model beynəlxalq təcrübəyə əsaslanmaqla müasir tədris texnologiyalarını özündə ehtiva edəcək. Bu baxımdan, klinikanın yaradılması yeni dövrün çağırışlarına uyğun peşəkar tibb mütəxəssislərinin hazırlanması istiqamətində atılmış mühüm addım kimi dəyərləndirilir.

Rektor deyib: "İnanırıq ki, klinika tibb sahəsində innovativ və səmərələşdirici həllərin əldə olunması ilə nəticələnən elmi araşdırmaların aparıldığı modern tədqiqat mərkəzinə çevriləcək. Klinikada reallaşdırılacaq elmi-tədqiqatlar Qarabağ Universitetinin akademik nüfuzunun artmasına, eləcə də ölkəmizdə tibb elminin inkişafına ciddi zəmin yaradacaq. "Qarabağ Universitetinin Klinikası" regionda yaşayan və növbəti mərhələdə doğma torpaqlarımızda məskunlaşacaq vətəndaşlarımızın müasir tibbi xidmətlərə çıxış imkanlarını da əhəmiyyətli dərəcədə artıracaq. Peşəkar personalı və müasir infrastrukturu ilə klinika Qarabağda yüksəkkeyfiyyətli tibbi xidmətlərin göstərilməsində mühüm pay sahibi olacaq".

Onun sözlərinə görə, klinikanın yaradılması Qarabağ Universitetinin öz strateji hədəflərinə doğru daha sürətlə irəliləməsinə mühüm təkan verəcək. O cümlədən klinika Qarabağ Universitetinin işğaldan azad olunmuş əzəli torpaqlarımızda həyatın bərpasına töhfə verməsi imkanlarını əhəmiyyətli dərəcədə artıracaq.

Qeyd edək ki, Prezident İlham Əliyev fevralın 7-də "Qarabağ Universitetinin Klinikası" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Fərman imzalayıb.